**https://doi.org/10.58225/tim.2025-2-247-252**

**UOT: 330.142.2, 338.43**
**JEL:Q14, Q18**

**M.Ə.Hacıyev**
***doktorant, Aqrar Tədqiqatlar Mərkəzi***
***murad.haciyev.01@list.ru***

*Məqalə redaksiyaya daxil olub 27.02.2025*
*The article was received by editorial board on 27.02.2025*
*Статья принята к печати 27.02.2025*

# KƏND TƏSƏRRÜFATINDA İNVESTİSİYA RESURSLARININ FORMALAŞMASI MƏNBƏLƏRİ

**Xülasə**

*İnvestisiya resursları kənd təsərrüfatının qəbul olunmuş müvafiq strategiyalara uyğun inkişafının təmin olunmasının başlıca amilidir. Aqrar sahənin əsas kapitalla təminatı və onun strukturnun davamlı inkişaf tələblərinə uyğun təkmilləşdirilməsi bütün mənbələr üzrə investisiya resurslarının cəlb edilməsi imkanlarının səmərəli istifadə edilməsi ilə bağlıdır.*

*Məqalədə kənd təsərrüfatında investisiya resurslarının tərkibi və onun əsas kapitalın formalaşmasında roluna dair yanaşlmalara baxılır, bu sahədə aqrar sektora xas olan xüsusiyyət göstərilir. Eyni zamanda, Azərbaycanın kənd təsərrüfatında əsas kapitala yönəldilən investisiya resurslarının mənbələr üzrə formalaşması məsələləri təhlil olunur. Aqrar sahədə investisya resurslarının davamlı artımının təmin edilməsinə dair müvafiq dəyərləndirmələr aparılır.*

***Açar sözlər:*** *investisiya resursları, kənd təsərrüfatı, əsas kapital, investisya resurslarının mənbələri, dövlət və qeyri-dövlət investisiyaları.*

## GİRİŞ

Müasir şəraitdə kənd təsərrüfatı istehsalının davamlı inkişafının təmin edilməsi bu sahəyə zəruri həcmdə investisiya qoyuluşları ilə bağlıdır. Kənd təsərrüfatında əsas kapitala yönəldilən investisiyalar ərzaq təhlükəsizliyinin güzləndirilməsi və məhsul ixracının genişləndirilməsinin əsas amillərindəndir. İnvestisiyalar eyni zamanda, aqrar sahənin dayanıqlılıq prinsiplərinə uyğun inkişaf etdirilməsinə, torpaq və su resurslarından səmərəli istifadəsinə şərait yaradılmasının şərtlərindən biri kimi çıxış edir.

Qeyd edilənlərlə əlaqədar, aqrar sahəyə kifayət qədər investisiya axınlarının təmin olunmasına uyğun resursların formalaşdırılması məsələlərinin həllinə ehtiyac yaranır. Bu baxımdan kənd təsərrüfatında əsas kapitala yönəldilnən investisya resurslarının formalaşmasının əsas mənbələr üzrə təhlil edilməsi və onların hər biri üzrə mövcud imkanların dəyərləndirilməsi maraq kəsb edir. Bu istiqamətdə müvafiq araşdırmalar aqrar sahədə investisiya resurslarının davamlı artırılması şərtlərinin aydınlaşdırılmasına imkan açır.

### Kənd təsərrüfatında investisiya resurslarının əsas kapitalın formalaşmasında rolu

İnvestisiya resursları ən ümumi şəkildə investisiya qoyuluşlarına yönəldilən müxtəlif növ ehtiyatlar kimi müəyyən edilə bilir. İnvestisiya resursları iqtisadi subyektlərin investisiya fəaliyyətinin həyata keçirilməsi üçün istifadə edilən pul və digər aktivlərin bütün növləri kimi səciyyələndirilir [11]

İnvestisiya resurslarının ayrılması iqtisadi resursların strukturuna sistemli yanaşma əsasında mümkün olur. Sözügedən resurslar konkret məqsədli funksional təyinata malik olmaqla iqtisadi subyektlərin gələcək dövrlərdə gəlir və ya başqa formada sərfə əldə etməsinə xidmət edir.

İnvestisiya resurslarının öz təyinatı üzrə istifadəsi mahiyyəti etibarilə investisya qoyuluşlarını və ya yatırımlarını ifadə edir. İqtisadiyyatın real sektorunda həmin prosesin nəticəsi əsas kapitalın formalaşmasıdır. Bu mənada investisiya resursları sözüdedən sektorda, o cümlədən kənd təsərrüfatında kapital əmələgətirmə vasitələridir. Bu cəhəti nəzərə almaqla iqtisadi ədəbiyyatda investisiya resurslarının formalaşması əsas fondlarla təminatda başlıca problem olaraq dəyərləndirilir. [4]

İnvestisya resursları ilk növbədə investisya fəaliyyətinin həyata keçirilməsində istifadə olunan maliyyə vəsaitləri formasında mövcud olur. Belə vəziyyətlə əlaqədar, bəzi hallarda investisiya resursları əslində ümumiyyətlə investisiya qoyuluşları üçün maliyyə aktivləri ilə eyniləşdirilə bilir. Belə ki, N. L. İqoşinaya görə "investisya resursları investisyalaşma obyektlərinə qoyuluşları həyata keçirilmək üçün cəlb edilən maliyyə aktivlərinin bütün növlərindən ibarətdir." [9] Eyni zamanda, fikirmizcə investisiya resurslarının belə müəyyənliyi ancaq iqtisadiyyatın maliyyə sektoruna, daha dəqiq d**e**yilərsə**,** maliyyə bazarlarına aid edilə bilər. Məsələyə geniş raksuda yanaşıldıqda investisiya resurslarının daha geniş tərkibə malik olduğu nəzərə alınmalıdır. İnvestisya resursları iqtisadiyyatın real sektorunda maliyyə vəsaitləri ilə yanaşı, iqtisadi aktivlərin digər növlərini – maddi və qeyri-maddi aktivləri də əhatə edir. İnvestisiya resurslarının tərkibinə göstərilən aspektdə yanaşılmasını məqsədəuyğun hesab edən N. İ. Laxmetkina və K. İ. Şeryay sözügedən resurslara investisiya fəaliyyətinin realaşdırılması üçün cəlb edilən maliyyə və real aktivlərin bütün növlərinin aid edilməsinə tərəfdar çıxırlar. [11]

İnvestisiya resurlarının tərkibinə maliyyə aktivləri ilə yanaşı, maddi və qeyri-maddi aktivlərin də daxil edilməsini nəzərədə tutan yanaşma post-sosialist ölkələrin, o cümlədən Azərbaycanın müvafiq qanunvericiliyində də əksini tapmışdır. Belə ki, "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda investisiya gəlir əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti obyektlərinə qoyulan pul vəsaitləri, qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar kmi müəyyən olunur. [10] İnvestisiyanın bu müəyyənliyi əslində investisiya qoyuluşlarına yönəldilən resusrların tərkib elementlərini özündə ehtivə edir.

Beləliklə, iqtisadiyyatın real sektorunda investisiya resursları investisiya fəaliyyəti nəticəsində obyektlərin əldə olunması və ya yaradılmasına yönəldilən maliyyə vəsaitlərini, maddi vəsaitləri-avadanlıqları, və investisiya təyinatlı digər məhsulları, habelə patenrləri, lisenziyaları və digər formalarda qeyri-maddi aktivləri əhatə edir.

İnvestisiya resurslarının tərkibi investisiya fəaliyyətinin həyata keçirildiyi sferalar və istiqamətlər üzrə fərqlənir. Bu baxımdan iqtisadiyyatın aqrar sektoru üçün müəyyən xüsusiyyət səciyyəvidir.

Kənd təsərrüfatı istehsalında iqtisadi və təbii proseslərin çulğaşması ilə əlaqədar bu sferada əsas kapitalı təşkil edən istehsal vasitələrinin bir qismi bioloji məhsullardan ibarətdir. Bunlara məhsuldar mal-qara, çoxillik əkmələr daxildir. Eyni zamanda, əsas kapitalın sözegedən ünsürlərinin formalaşdırılması prosesi kənd təsərrüfatı fəaliyyəti çərçivəsində həyata keçirilir. Bu halda investisiya resursunun əsas kapitala çevrilməsi (məsələn, təsərrüfatda yetişdirilmiş cavan mal-qaranın məhsudar mal-qara kimi istifadəsinin davam etdirilməsi) təsərrüfatdaxili istehsal tsiklinin gedişində baş tutur.

**İnvestisiya resurslarının əsas mənbələri**

İnvestisiya resursları müxtəlif mənələrdən formalaşır. Ətraflı təhlil üçün sistemli yanaşma əsasında həmin mənbələrin müxtəlif meyarlar üzrə təsnifatının aparılması məqsədəuyğundur. Bu istiqamətdə iqtisadi sistemin səviyyəsi meyarından çıxış etməklə investisiya məndələrinin makro səviyyədə, sahə səviyyəsində və şirkətlər səviyyəsində mənbələri ayrılır. Həmin mənbələr üzrə resursların formalaşması istiqamətləri diaqram 1-də göstərilmişdir.

**Diaqram 1. Kənd təsərrüfatında investisiya resurslarının iqtisadiyyatın səviyyələri üzrə formalaşması mənbələri**




***Mənbə:*** *Müəllif tərəfindən tərtib edilmişdir*

Makroiqtisadi səviyyədə investisiya resurslarının əsas mənbələrinə milli qənaət, habelə ölkəyə xalis kapital transferləri və xarici ölkələrdən xalis borclanma aid edilir. [8] Bunların arasında milli qənaət əsas yer tutur.

Kənd təsərrüfatında investisiya resurslarının formalaşmasının xarici mənbələrini müvafiq yönümdə beynəlxalq qurumlar tərəfindən yönəldilən vəsaitlər və müstəqim investisiya qoyuluşlarının həyata keçirilməsinə yönəldilən vəsaitlər təşkil edir. Göstərilən mənbələrdən daxil olmalar ümumi investisiya resurslarının formalaşmasında əhəmiyyətli rola malik deyil. 2015-2020-ci illərdə qeyd edilən mənbədən daxil olmaların kənd təsərrüfatına formalaşan ümumi investisiya resurslarında payı 0.4% olmuşdur. Rəsmi statistika məlumatlarına əsasən, 2021-2023-cü illərdə isə aqrar sahəyə xarici investisiya resursları yönəldilməmişdir. [1]

Sahə səviyyəsində investisiya resurslarının dövlət və qeyri-dövlət (özəl) mənbələrinin ayrılması məqsədəuyğundur. Dövlət investisiya siyasəti çərçivəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinə prioritetliyin təmin edilməsi, habelə inkişaf üçün ümumi əsasların formalaşdırılması amilləri nəzərə alınmaqla, əsas kapitalın formalaşmasına investisiya resursları yönəldir. Bu baxımdan kənd təsərrüfatı sahəsində istehsal infrastrukturunun yaradılması və genişləndirilməsinin əsas mənbəyini dövlət tərəfindən ayrilan vəsaitlər təşkil edir. Dövlət investisiya resursları həmcinin kənd təsərrüfatı istehsalı ilə məşğul olanların müxtəlif növ istehsal vasitələri ilə təmin olunmasına maliyyə köməyi, lizinq xidmətinin təmin edilməsi formalarında da göstərilir. Azərbaycanın kənd təsərrüfatında dövlət investisiyalarının əsas istiqamətlərini irriqasiya və meliorasiya infrastrukturunun inkişaf etdirilməsi, fermerlərə texnika və suvarma avadanlıqlarının alınmasına birdəfəlik yardımlar göstərilməsi üstünlük təşkil edir.

Hazırda dövlət investisiyaları ölkənin kənd təsərrüfatına yönəldilən investisiyaların 1/2 hissəsindən çoxunu təşkil edir. Son dövrlərdə bu göstəricinin nisbətən azalma meyli formalaşmışdır. (Diaqram 2)

**Diaqram 2. Azərbaycan kənd təsərrüfatına yönəldilən dövlət və qeyri-dövlət investisiyaları (%)**




***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (AR DSK-nin) məlumatları əsasında tərtib edilmişdir [2]*

**Qeyd etmək lazımdır ki, aqrar sahəyə dövlət investisiyalarının xüsusi çəkisində son dövrlərdə müəyyən azalmaların müşahidə edilməsi qeyri-dövlət investisiyalarının daha yüksək templə artması ilə bağlı olmuşdur. 2020-2023-cü illərdə kənd təsərrüfatına dölət investisiyalarının dəyər ifadəsində orta illik həcmi 244.4 milyon manat, qeyri-dövlət investisiyalarının həcmi isə 217.8 milyon manat təşkil etmişdir. [2]**

Hazırkı dövrdə dövlət vəsaitləri hesabına kənd təsərrüfatına yönəldilən investisiya resursları dövlətin ümumi investisiya qoyuluşlarında 4.2 %-lik paya malikdir. Aqrar sahənin ölkə üzrə qeyri-dövlət investisiyaqlarında xüsusi çəkisi 2.1 %, ümumi investisiya qoyuluşlarında payı isə 2.7 % təşkil edir. Sonuncu göstərici kənd təsərrüfatının ölkənin Ümumi Daxili Məhsulunda payı ilə müqayisədə aşağıdır. Belə ki, 2023-cü ildə qeyd edilən göstərici 5.5 % təşkil etmişdir.

Digər tərəfdən, son dövrlərdə kənd təsərrüfatının istər dövlət və istərsə də özəl investisiya resursları ilə təminatın dinamikasında qeyri-stabillik diqqəti cəlb edir. (Diaqram 3)

**Diaqram 3. Azərbaycanın kənd təsərrüfatında dövlət və özəl investisiyalarının illər üzrə dəyişməsi**




| | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Dövlət investisiyası | 360.6 | 358.2 | 234.8 | 75.4 | 169.4 | 498.1 |
| Özəl investisiyalar | 403.8 | 411.4 | 285.7 | 266.5 | 238.7 | 80.1 |
| İnvestisiyaların ümumi həcmi | 764.4 | 769.6 | 520.5 | 341.9 | 408.1 | 578.2 |

***Mənbə:*** *AR DSK-nin məlumatları əsasında tərtib edilmişdir [1]*

3-cü diaqramın məlumatlarından aydın olduğu kimi, kənd təsərrüfatında əsas kapitala yönəldilən dövlət investisiyaları 2021-ci ildə 3 dəfədən çox azalmış, 2022-ci ildə isə əvvəlki ilə nisbətən 2 dəfə artmışdır. Oxşar situasiya özəl investisiyaların dinamikasında da müşahidə edirir. Belə ki, həmin istiqamət üzrə cəlb edilən investisiyaların həcmi 2023-cü ildə 3 dəfəyə yaxın azalmışdır. Göstərilən vəziyyə\t aqrar sahədə investisiyaların ümumi həcm göstəicisi üzrə kəskin qalxıb-enmələrə səbəb olur. Başqa sözlə, sahəyə investisiya qoyuluşlarının yüksəlməsində davamlılıq təmin olunmur.

Kənd təsərrüfatında investisiya resurslarının müəssisə və təsərrüfatlar səviyyəsində formalaşmasının mənbələrinə həmin qurumların özlərinin istehsal fəaliyyətlərindən əldə etdikləri vəsaitlərin daxili yığıma yönəldilən hissəsi, amortizasiya ayırmaları, həmçinin maliyyə institutlarından aldıqları borc vəsaitləri ( bank kreditləri, istiqrazlar buraxılışından əldə edilən vəsaitlər, lizinq və digər öhdəliklər) və cəlb edilmiş vəsaitlər aid edilir. Sonuncu mənbəyə səhmlərin emissiyasından əldə edilən vəsaitlər, müəssisənin nizamnamə kapitalına pay kimi qoyulan vəsaitlər, əvəzsiz və ya pay şəkilində dövlət maliyyələşdirmələri aid edilir.

## NƏTİCƏ

Kənd təsərrüfatında investisiya resursları bu sahədə əsas kapitalın formalaşmasını təmin edir edir. Zəruri həcmdə investisiya resursları əsas kapitalın strukturunun müasir inkişaf tələblərinə uyğun olaraq ardıcıl surətdə təkmilləşdirilməsinin amili kimi çıxış edir.

Bununla əlaqədar, aqrar sahədə əsas kapitala yönəldilən investisiya resurslarının bütün əsas mənbələr üzrə davamlı surətdə artırılmasına ehtiyac yaranır. Bu istiqamətdə Azərbaycanın kənd təsərrüfatına istər dövlət və istərsə də özəl mənbələrdən investisiya resurslarının dinamikasında qeyri-stabilliyin aradan qaldırılması vacib hesab edilir.

İnvestisiya resurslarının aqrar sahənin dayanıqlı inkişafına, iqlim dəyişiklərinə uyğunlaşma ilə bağlı məsələlərin həllinə yönəldilməsinə prioritetlik verilməsi tələbi nəzərə alınmaqla, bu sahəyə xarici mənbələr, o cümlədən müstəqim xarici investisiyaların cəlb edilməsinin genişləndirilməsinə diqqətin gücləndirilməsi məqsədəuyundur.

Kənd təsərrüfatında investisiyaların formalaşmasına yönəldilən kredit resurslarının həcminin artırılması məqsədilə həmin kreditlər üzrə faizlərin daha da aşağı salınması, habelə alınan kreditlər üçün təminat şərtlərinin yümşaldırlması məqsədəuyğun hesab edilir. İlk növbədə, inkişaf etmiş ölkələrin müvafiq təcrübələri nəzərə alınmaqla, maliyyə imkanları nisbətən aşağı olan kənd təsərrüfatı istehsalçılarının investisiyaya qoyuluşlarına yönəldilən uzunmüddətli kreditlər üçün dövlət tərəfindən güzəştli təminat mexanizminin formalaşması məsələsinə baxıla bilər

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** AR DSK Azərbaycan Respublikasında tikintinin əsas göstəriciləri https://www.stat.gov.az/source/construction/

**2.** AR DSK Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq https://www.stat.gov.az/source/agriculture

**3.** Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair I Dövlət Proqramı

**4.** Boyko A. A., Kukartsev V.V. , Tynchenko V.S., Nasyrovb İ.R., Kukartsev V.A. Structural-functional Model of Investment Resources Formation of Fixed Assets Reproduction https://www.atlantis-press.com/proceedings/icemw-18/25904951

**5.** Capital Formation in Agriculture https://ru.scribd.com/document/469666711/Capital-Formation-in-Agriculture-1-pdf

**6.** FAO Promoting investment in agriculture for increased production and productivity https://openknowledge.fao.org/server/api/core/bitstreams/6c09e974-9a3b-49e3-b83c-bd74152a93aa/content

**7.** Features of Financial Policy Development by Russian Companies in Today's Conditions https://www.igi-global.com/dictionary/investment-resources-of-a-company/68128

**8.** Əhmədov B.S. (2024). Azərbaycan iqtisadiyyatinda investisiya resurslarinin formalaşmasi və səmərəli istifadə edilməsi problemləri Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. Baki.

**9.** Игонина Л.Л. (2015). Инвестиции, М.

**10**. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasinin qanunu https://e-qanun.az/framework/50048

**11.** Лахметкина Н.И., Шеряй К.И. Об экономической сущности понятия «Инвестиционные ресурсы предприятия» https://cyberleninka.ru/article/n/ob-ekonomicheskoy-suschnosti-ponyatiyai-investitsionnye-resursy-predpriyatiya*)*

**12.** OECD Policy Framework for Investment in Agriculture https://www.oecd-ilibrary.org/docserver/9789264212725-en.pdf?expires=1727168944&id=id&accname=guest&chec ksum=2279CD0D07F0C49559EEF642B01DA80E

**M.A.Hajiyev**
*PhD student, Agrarian Research Center*

## Sources of formation of investment resources in agriculture

**Abstract**

*Investment resources are the main factor in ensuring the development of agriculture in accordance with the adopted relevant strategies. Providing the agricultural sector with fixed capital and improving its structure in accordance with the requirements of sustainable development are related to the efficient use of opportunities for attracting investment resources from all main sources.*

*The article examines the approaches to the composition of investment resources in agriculture and its role in the formation of fixed capital, and in this regard, the specific features of the agricultural sector are shown. At the same time, the issues of the formation of investment resources directed to fixed capital in the Azerbaijani agriculture by sources are analyzed. Relevant assessments are made to ensure the continuous growth of investment resources in the agricultural sector.*

***Keywords:*** *investment resources, agriculture, fixed capital, sources of investment resources, state and non-state investments.*